

## AMEA-nın MÜXBİR ÜZVÜ RAUF RÜSTƏM OĞLU HÜSEYNOV - 80

Milli Elmlər Akademiyasının müxbir üzvü Rauf Rüstəm oğlu Hüseynovun 80 yaşı tamam olur. O, bərk cisim nəzəriyyəsi sahəsində elmi tədqiqatları ilə tanınan görkəmli alimdir. R.R.Hüseynov Bakı şəhərində 4 mart 1940-cı ildə anadan olub. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) fizika fakültəsini bitirdikdən sonra o, Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna təyinat almış və bu günədək institutda çalışır. 2003-cü ildən R.R.Hüseynov "Bərk cisim nəzəriyyəsi" laboratoriyasına rəhbərlik edir.

1965-1971-ci illərdə R.R.Hüseynov P.M.Lebedev adına Fizika İnstitutunda (Moskva, FİAN) elmi təcrübə keçmiş, həmin institutun aspiranturasına daxil olmuş və 1973-cü ildə akademik L.V.Keldışın rəhbərliyi ilə "Kristalda eksiton hallarının dayanıqsızlığı ilə əlaqədar elektron faza keçidi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdi. FİAN-da keçdiyi məktəb R.R.Hüseynovun sonrakı elmi fəaliyyətini istiqamətləndirib. 1986-cı ildə o, "Güclü anizotropluğa malik yarımkeçiricilərdə və yarımkeçirici strukturlarda Kulon qarşılıqlı təsiri və kollektiv hadisələr" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir.

R.R.Hüseynovun elmi fəaliyyəti bərk cisim nəzəriyyəsinin ən aktual istiqamətləri ilə bağlıdır. O, yarımkeçiricilərdə "eksiton dielektriki" halının yaranma mümkünlüyünü araşdıraraq mühüm nəticələr almışdır. R.R.Hüseynov "Süni kvazi-ikiölçülü yarımkeçirici üstqəfəslərin enerji spektri və optik xassələri" kimi yeni elmi istiqamətin yaradıcılarından biridir. O, xaricdə çox sayda elmi konfranslarda məruzələrlə çıxış etmiş, məqalələri tanınmış beynəlxalq jurnallarda dərc elunub.

"Fizika" jurnalı yarandığı gündən R.R.Hüseynov redaksiya heyətinin üzvü olub, jurnalın elmi səviyyəsinin artmasında mühüm rol oynayıb. Dissertasiya Şuralarının üzvü kimi o, bir çox dissertasiyalara opponentlik edir. Pedaqoji fəaliyyətə böyük diqqət yetirərək, R.R.Hüseynov uzun illər ərzində Fizika İnstitutunun aspirantlarına bərk cisim fizikasının aktual problemlərinə dair, Bakı Dövlət Universitetinin Fizika fakültəsində nəzəri fizika üzrə mühazirələr oxumuşdu.

2014-cü ildə R.R. Hüseynov Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.